BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3* *Sosial-siyasi elmlər seriyası* *2015*

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**UOT 323.1; 327.39**

# DÖVLƏTİN MİLLİ TƏHLÜKƏSİZLİYİ: MAHİYYƏTİ VƏ TƏMİN OLUNMASI

**Z.M.HƏSƏNALIYEV**
***Bakı Dövlət Universiteti***
***irl@bsu.az***

*Məqalədə dövlətin milli təhlükəsizliyi problemi tədqiq olunur. İlk öncə milli təhlükəsizlik anlayışının mahiyyəti açıqlanmışdır. Xüsusilə milli təhlükəsizlik – dövlətin və cəmiyyətin müxtəlif daxili və xarici təhlükələrdən qorunması kimi xarakterizə olunur. Milli təhlükəsizlik anlayışı açıqlanarkən milli maraqlar anlayışına da toxunulur. Milli təhlükəsizlik və milli maraqlar biri-birini tamamlayan məfhumlar olduğu əsaslandırılır, milli təhlükəsizliyin təmin olunmasının prinsip və mexanizmləri hərtərəfli təhlil olunur.*

**Açar sözlər:** milli maraqlar, milli təhlükəsizlik, dövlət, cəmiyyət, təhlükə, informasiya təhlükəsizliyi

Milli təhlükəsizlik ilk növbədə şəxsiyyətin (vətəndaşın), dövlətin və cəmiyyətin, həmçinin milli dəyərlərin və həyat tərzinin, siyasi, hərbi, iqtisadi və s. təhdidlərdən müdafiə olunmasını nəzərdə tutur. Milli təhlükəsizliyin təminolunmasının (MTT) əsas prinsipləri dedikdə: qanunilik, həyati vacib maraqların təmin olunması, vətəndaşın, cəmiyyətin və dövlətin qarşılıqlı məsuliyyəti, beynəlxalq təhlükəsizlik sisteminə inteqrasiyası başa düşülür. Milli təhlükəsizliyin təmin olunmasının əsas vəzifələri aşağıdakılardır:

-dövlətin təhlükəsizliyi üçün mövcud olan mümkün daxili və xarici təhdidlərin aşkara çıxarılması;

-daxili və xarici təhdidlərin qarşısının alınması və zərərsizləşdirilməsi yönündə tədbirlərin görülməsi.

Milli təhlükəsizliyin təmin olunmasının mərhələləri isə bunlardır:

-təhlükəsizliyin profilaktikası – təhdidlərin yaranmasını şərtləndirən səbəblərin aşkarlanması;

-təhlükələrin önlənməsi-təhlükənin mənbəyinə və onu reallaşdırmaq

məramlarına yönəlmiş bütün proseslərə maneələr yaratmaq;

-onların qarşısının alınması, milli maraqlara zərər verən bütün cəhdlərin aradan qaldırılması [2, 49].

Milli təhlükəsizlikdən bəhs edərkən istənilən halda milli maraqların mahiyyətinə aydınlıq gətirmək tələb olunur. Qeyd edək ki, artıq uzun illərdən bəri milli maraq məhfumu ətrafında ciddi diskussiyaların getməsinə baxmayaraq, bu istiqamətdə hamının qəbul edəcəyi bir müəyyənlik yoxdur. Dövlətin milli maraqları anlayışı bir qayda olaraq milli təhlükəsizlik problemlərinin aradan qaldırılması və xarici siyasi fəaliyyət zamanı daha çox aktuallıq kəsb edir. Milli təhlükəsizlik probleminin müasir dövrdə izah olunması tərzi milli maraqları bu sahəyə daha yaxın hesab etmək üçün əsas yaradır. Yəni milli təhlükəsizlik kifayət qədər geniş sərhədlərə malik olduğu üçün istər-istəməz milli maraq problemini öz müstəvisinə cəlb edir.

Dövlətin milli təhlükəsizliyi geniş mənada dövlətin suverenliyini, bütün vətəndaşlarının azadlığını, təhlükəsizliyinin və toxunulmazlığının təmin olunmasını əhatə edir. Bu mənada MT-yin əsas hədəfləri dövlət – onun Konstitusiya quruluşu, müstəqilliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı, vətəndaş – onun hüquq və azadlıqları, cəmiyyət – onun maddi və mənəvi sərvətləridir [7, 28].

Ümumiyyətlə, milli təhlükəsizlik: milli maraqlar, təhlükəsizliyə təhdidlər və onlardan müdafiəni nəzərdə tutan üç əsas elementin vəhdətindən ibarətdir. Bu o deməkdir ki, təhlükəsizliyin bir elementinin ideal şəkildə təmin olunması şəraitində belə, digər sahənin nəzərdən kənarda qalması heç vaxt dövlət təhlükəsizliyini mükəmməl təmin edə bilməz. Bu da öz növbəsində fasiləsiz olaraq dəyişən yeni şəraitin, ən başlıcası yeni təhdidlərin aktual siyahısını müəyyən etməyi və ona qarşı mübarizə vasitələrini təhlil etməyi tələb edir.

Qeyd edək ki, dövlətin milli təhlükəsizliyi elə milli maraqların qorunmasından ibarətdir və təşkilatlanmış formada reallaşdırılır. Dövlətin milli maraqlarının mahiyyətini izah edərkən, nəzərə almaq lazımdır ki, bu anlayış beynəlxalq siyasətdə XVI əsrdən işlənməyə başlamış, milli dövlətlərin meydana gəlməsi ilə siyasi strateji məqsədə çevrilmişdir. Dövlətin istənilən vəziyyətində milli maraqların qorunması məsələsi kifayət qədər aktual olur. Çünki, milli maraqlar dövlətin suverenliyi, ərazi bütövlüyü, müstəqilliyi, vətəndaşlarının təhlükəsizliyi və s. məqamlarla birbaşa bağlıdır. Hazırda milli maraqların qorunması tələb olunan yeni-yeni sahələr meydana gəlməkdədir. Məsələn, qloballaşmanın əsas əlamətlərindən biri kimi qəbul olunan qlobal informasiya məkanının formalaşması bu məkanda dövlətin milli maraqlarının qorunması zərurətini meydana gətirmişdir. Buradan belə nəticə hasil etmək olur ki, milli maraqlarla milli təhlükəsizlik problemləri biri-birilərini tamamlayırlar, birinin təmin olunması elə digərinin də təmin olunması kimi qəbul olunur. Lakin milli maraqların milli təhlükəsizlikdən fərqli məqamları da kifayət qədər çoxdur. Əsas məqam ondan ibarətdir ki, milli maraqlar millətin özünü dərk etməsi prosesidir, onun təməlində idrak, milli təfəkkür dayanır.

Təhdid dedikdə - təhlükə mənbələrinin və müdafiə olunan obyektin qarşılıqlı təsiri prosesində arzuolunmaz, qorxulu amillərin meydana gəlməsinin real imkanı başa düşülür. Təhdid-mümkün təhlükə deməkdir. Təhdidlər aşağıdakı kimi təsnifləşdirilir:

-insanların fəaliyyət sahələrinə (siyasi, iqtisadi, sosial, hüquqi, ekoloji, demoqrafik və s.) görə;

-mənşəyinə (xarici yaxud daxili mənbələrdən qaynaqlanmasına) görə;

-insanların iştirak səviyyələrinə (obyektiv və subyektiv, insanın məqsədyönlü yaxud məcburi şəkildə iştirakına) görə;

-reallaşma ehtimalına görə (potensial və real);

-nəticələrinin əhəmiyyətinə və miqyasına (qlobal və lokal) görə [6, 7].

Dövlət və cəmiyyətin təhlükəsizliyinin təmin edilməsinin bir sıra məqamları, xüsusilə siyasi xarakterli konsepsiyalar hazırda ciddi müzakirə obyektinə çevrilmişdir. Məlumdur ki, hazırkı məqamda insanların və cəmiyyətin həyatına, təhlükəsizliyinə yeni xarakterli təhdidlər meydana gəlməkdə, sayı davamlı olaraq artmaqdadır. Belə bir vəziyyətdə milli təhlükəsizlik probleminə yeni yanaşma tərzinin sərgilənməsi tələb olunur. Deməli, həmçinin yeni biliklər sisteminin formalaşdırılması məsələsi də aktualdır. Bir çox politoloqların fikrinə görə, hazırda təhlükəsizlik məsələlərinin həllinə kompleks yanaşmaq tələb olunur və bu sırada miqrasiya təhlükəsizliyi, onun məzmunu və mahiyyəti, təmin olunmasının yolları, strukturu və funksiyaları ən önəmli məsələlərdəndir. Bu məsələ böyüklüyündən-kiçikliyindən asılı olmayaraq, bütün dünya dövlətləri qarşısında tam ciddiliyi ilə dayanmaqdadır. Məsələn, bunu təsdiq edən məqam kimi qeyd edə bilərik ki, 2009-cu ildə ABŞ prezidenti Barak Obama Milli Təhlükəsizlik Şurasının kadrlarının sayını, beynəlxalq və daxili məsələlərin həlli strategiyasının müəyyən edilməsi səlahiyyətlərini artırmağı strateji məsələ kimi irəli sürmüşdür. Milli təhlükəsizlik məsələləri üzrə müşavir Ceyms Cons ABŞ-da hazırkı qurumun səmərəli olmadığını bildirərək qeyd edib ki, XXI əsrin kibernetik təhlükəsizliyi, miqrant axınları, ətraf mühit, dövlət quruculuğu və infrastruktur kimi məsələlərin həlli üçün şuranın xarici siyasəti genişləndirilməlidir[9].

Müxtəlif ölkələrdəki Milli Təhlükəsizlik Sistemlərinin (MTS) bir-birindən fərqlənməsinə baxmayaraq, bütün hallarda bu özündə ən azı üç başlıca məqamı ifadə edən bir müstəvi olmalıdır. Bunlar aşağıdakılardan ibarətdir:

-beynəlxalq sistemdə dövlətin rolu;

-qəbul olunmuş yerli və beynəlxalq problemlər;

- bu problemlərə qarşı aktorların birgə həyata keçirməli olduğu öhdəliklər.

Qeyd etdiklərimiz arasında birinci məqam dövlətin beynəlxalq münasibətlər sistemindəki mövqeyi və rolu ilə bağlıdır. Bu, hər şeydən öncə dövlətin milli maraqlarını və əsas dəyərlərini nəzərə alınaraq fəaliyyət göstərilməsini tələb edir. Dövlət qərarlar qəbul edərkən məhz bu məqamlardan çıxış edir. Dövlətin gələcək addımlarının nəticəsini də onun milli maraqlarının və dəyər-

lərinin xarakteri müəyyənləşdirir.

İkinci məqam isə, hazırkı və mümkün potensial təhlükələrin müəyyənləşdirilməsi və onun ciddilik səviyyəsinin qiymətləndirilməsi ilə bağlıdır. Milli təhlükəsizlik sistemi bir qayda olaraq bu xarici təhlükəsizlik məsələsinə diqqət ayırır, nəzəriyyə bu məqamın həm də daxili təhlükəsizlikə əlaqəli olduğunu əsaslandırır. Bunu onunla izah etmək mümkündür ki, beynəlxalq təhlükəsizliyin subyektlərinin siyasi davranış və baxışları bir çox hallarda həlledici məqam kimi nəzərdən keçirilir. Beynəlxalq müstəvidə təhlükəsizlik sahəsində əməkdaşlığın qurulması zamanıda bu aşkar şəkildə özünü biruzə verir.

Üçüncü məqam isə hər bir icraçı iştirakçının məsuliyyət həddini nəzərdə tutur. Burada təhlükəsizliyin təmin olunması istiqamətiundə həyata keçirilən fəaliyyət növü əsas götürülür və iştirakçıların mandatlarına aid olan bütün digər sahələr buraya daxildir.

Təbii ki, demokratiya yoluna yeni qədəm qoymuş müstəqil dövlətlərdə, xüsusilə də torpaqlarının 20 faizi Ermənistan Respublikası tərəfindən işğal edilmiş Azərbaycanda vəziyyət fərqlidir. Bununla belə, qloballaşma və terrorizmin geniş yayıldığı müasir dövrdə “təhlükəsizlik bölünməzdir” prinsipi həm milli, həm də beynəlxalq məkanda özünü göstərir.

Milli maraqlara təhlükə anlayışının necə qavranılması da önəmli məsələdir. Bəziləri yanlış olaraq milli maraqlara təhlükə dedikdə yalnız toqquşmalar, kataklizmlər və müharibələr ehtimalını göz altına alırlar. Əslində isə bu sıraya başqa vacib amillər də daxildir - texnoloji, sosial-iqtisadi və mədəni gerilik, dəyərlər sisteminin itirilməsi, cəmiyyətin informasiya məkanının kənar ideoloji təsirlərə məruz qalması və s. Bütün bunlar milli təhlükəsizliyi xarici təcavüzdən heç də az təhdid etmir və dolayısı ilə daha ağır nəticələrə gətirib çıxarmaq gücündədir.

Beynəlxalq münasibətlərin subyektləri olan hər bir müstəqil dövlətin əsas məqsədi ölkənin milli təhlükəsizliyini təmin etməkdir. Dövlətin daxili və xarici siyasətinin uğuru ölkənin milli təhlükəsizlik maraqlarının dəqiq və aydın ifadə olunmasından asılıdır.

Qeyd edək ki, geosiyasi baxımdan mürəkkəb və həssas beynəlxalq əhatədə yerləşən Azərbaycanın milli təhlükəsizliyinin təmin olunması, ilk növbədə onun milli maraqlarının - bu maraqlara yönəlik xarici və daxili risk, təhdid və təhlükələrin müəyyən olunmasını, ən qabaqcıl demokratik ölkələrin təcrübəsi də nəzərə alınmaqla səmərəli milli təhlükəsizlik strategiyası və konsepsiyasının işlənib hazırlanmasını tələb edir.[8, 24]

Milli təhlükəsizliyə olan əsas təhdidləri qiymətləndirərkən nəinki millətin və dövlətin maraqlarından çıxış etmək, həm də cəmiyyətin və şəxslərin əsas maraqlarını nəzərə almaq zəruridir. Milli təhlükəsizlik strategiyasının həyata keçirilməsində hər iki yöndə ifrata varılması – istər ölkənin ümummilli dövlət maraqlarının qorunmasında şəxsiyyətin və cəmiyyətin maraqlarının hesaba alınmaması, istərsə də şəxsiyyətin və cəmiyyətin maraqları təmin edilən

zaman ümummilli dövlət maraqlarına biganəlik eyni dərəcədə təhlükəli və yolverilməzdir. Milli təhlükəsizlik strategiyasının həyata keçirilməsində maraqların nisbətinin pozulması bir qayda olaraq əsas təhdidlərin adekvat qiymətləndirilməsində də analoji qeyri-tarazlığa gətirib çıxarır.

Qeyd edək ki, Azərbaycan üçün müstəqilliyini qazandıqdan sonra öz təhlükəsizlik konsepsiyasını müəyyənləşdirmək həyati əhəmiyyət daşıyırdı. Bu amil nəzərə alınaraq, Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir. Bu sənədin giriş hissəsində qeyd edildiyi kimi, milli təhlükəsizlik konsepsiyası dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçimi kimi Avratlantik məkana inteqrasiyasını, bununla yanaşı, tarazlaşdırılmış xarici siyasətinin çoxşaxəliliyini vurğulayan, Azərbaycan respublikasında şəxsiyyət, cəmiyyət və dövləti xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarının məcmusudur. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası dövlət təhlükəsizliyi çərçivəsində olan bütün sahələri əhatə edir.

Müasir dövrdə milli təhlükəsizliyin mühüm sahələrindən olan informasiya təhlükəsizliyi konsepsiyada xüsusi olaraq vurğulanmışdır. "İnformasiya təhlükəsizliyi siyasəti" adlanan bölmədə qeyd edilir ki, Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir.

Milli təhlükəsizlik problemləri ilə bağlı bəzi məqamlara da aydınlıq gətirmək vacibdir. Məsələn, "təhlükəsizlik" anlayışı aşağıdakı vacib məqamlarla harmoniyada nəzərdən keçirilir:

-təhlükəsizlik paradiqması cəmiyyətdə dərin kök salmış təhlükəsiz inkişaf təsəvvürləri ilə ifadə olunur;

-təhlükəsizlik mədəniyyəti, bu və ya digər sosial qrupun digərilərindən fərqləndirilməsinin əsasında hansı simvolların, obrazların və ideyaların dayanması haqqında təsəvvürlərdən ibarətdir. Təhlükəsizik mədəniyyəti "təhlükəsizlik məkanlarını" formalaşdırır, onları biri-birilərindən ayırır;

-təhlükəsizlik sərhədi dedikdə, ayrı-ayrı təhlükəsizlik məkanlarını biri-birindən ayıran sədd başa düşülür, bu məkanların sərhədləri siyasi arenadakı reallıqların təsiri altında dəyişir;

-təhlükəsizlik rejimi təhlükəsizlik aktorlarının davranış çərçivələrini müəyyənləşdirən prinsiplərin, qaydaların, normaların məcmusudur. Bunlar təhlükəsizlik aktorları arasında pozitiv qarşılıqlı fəaliyyəti və qarşılıqlı asılılığı şərtləndirir;

-təhlükəsizliyin idarə olunması dedikdə, ilk növbədə aktorların arasında əməkdaşlıq qaydaları olmalıdır. Bu, vacib sahələrdə təhlükəsizlik aktorları arasında əməkdaşlıq qaydalarıdır ki, həmin qaydalar təhlükəsizlik aktorlarının həyati vacib maraqlarını müəyyənləşdirir;

-təhlükəsizlik kompleksi ümumilikdə təhlükəsizlik haqqında dərin təsəvvürlərə malik olan ölkələri özünə daxil edən transmilli regiondur;

-təhlükəsizlik birliyi təhlükəsizlik kompleksinin formasıdır. Bu forma təhlükəsizlik sahəsində dəyərlərin uzlaşması əsasında formalaşır. Əksər hallarda təhlükəsizlik birliyinin Şimali Amerika və Qərbi Avropa ölkələrini əhatə etdiyini müşahidə etmək mümkündür;

-geotəhlükəsizlik kifayət qədər geniş məfhum olub təhlükəsizlik praktikasını və təhlükəsizlik identikliklərini daxil edir ki, bu da sərhədlərə malik olan müəyyən ərazidə "təhlükəsizliyin məkan obrazını" formalaşdırır.

Aparılan təhlildə təhlükəsizlik əsasən üç məqamın vəhdəti kimi nəzərdən keçirilir. Bunlar aşağıdakılardan ibarətdir:

1. Təhlükənin və təhdidin olmaması.
2. Meydana çıxan təhlükələrə qarşı müəyyən immunitetin və hazırlığın olması.
3. Təhlükələrin aradan qaldırılmasının işlək mexanizmlərinin mövcudluğu [6, 112].

Beləliklə, təhlükəsizlik sosiumun, onun struktur və institutlarının həyati vəziyyətidir ki, bu vəziyyət dayanıqlı və keyfiyyətli inkişafı təmin edir. Təhlükəsizlik elə bir vəziyyətdir ki, hər hansı bir obyektə təhlükə və təhdid faktorları təsir edə bilmirlər. Lakin belə bir vəziyyətin mövcudluğu təcrübədə demək olar ki, müşahidə olunmur. Çünki mütləq təhlükəsizlik mühiti demək olar ki, mövcud olmur. Bütün hallarda təhlükə və təhdid mövcuddur, lakin bu təhlükə və təhdidlər zaman və məkan çərçivələrində səviyyələrinə görə fərqlənirlər. Təhlükə və təhdidlər ən müxtəlif xarakterlərdə mövcud olurlar və həmişə mövcud olacaqlar. Təhlükələr öz miqyaslarına görə fərlənə bilərlər. Belə ki, təhlükələr intensiv, təhdid, lokal, ümumi və qlobal xarakterli ola bilərlər. Bu baxımdan, obyektə təsir səviyyəsinə görə təhlükələrin miqyaslarını və digər xarakterlərini biri-birilərindən fərqləndirmək lazımdır.

Ümumi şəkildə təhlükəsizliyin aşağıdakı səviyyələrini biri-birilərindən fərqləndirirlər:

-mütləq təhlükəsizlik ideal və tam təhlükəsizlik kimi başa düşülür. Başqa sözlə, mütləq təhlükəsizlik zamanı bu və ya digər obyek üçün hər hansı bir təhdid və təhlükə mövcud olmur;

-real və ya faktiki təhlükəsizlik. Bu təsəvvür olunan deyil, real mövcud olan təhlükəsizlikdir. Real təhlükəsizlik şəraitində mövcud olan təhdidlərə və təhlükələrə qarşı işlək mexanizmlər mövcud olur və onların qarşısının alınması istiqamətində adekvat addımlar atılır;

-yetərli təhlükəsizlik digər obyektin dayanıqlı inkişafı üçün mövcud tələbləri ödəyir. Belə səviyyədə təhlükənin və təhdidin olması obyektin inkişafı üçün hər hansı real məhdudiyyət yaratmır;

-məhdud təhlükəsizlik. Bu təhlükəsizliyin minimum həddidir. Belə vəziyyətlərdə obyektin inkişafı üçün kifayət qədər əlverişli mühit olmur və əksər hallarda təhlükə və təhdidlər ümumilikdə obyektin inkişafını məhdudlaşdırır;

-İlluziya təhlükəsizliyi. Belə olan halda real təhdid və təhlükələr mövcud

olmurlar, əksinə təhdid və təhlükələrin mövcudluğu haqqaında subyektiv təsəvvürlər mövcud olur. Müvafiq olaraq, belə təhdidlərin və təhlükələrin aradan qaldırılması istiqamətində atılan addımlar kortəbii xarakterləri ilə seçilirlər [9].

Milli təhlükəsizlik problemi ətrafında təhillər aprarkən mütləq onun təmin olunması mexanizmləri məsələsinə də toxunmaq lazımdır. Qeyd edək ki, milli təhlükəsizliyin təmin olunmasının əsas subyekti və qarantı rolunda dövlət çıxış edir, habelə bu istiqamətdə müvafiq fəaliyyətləri koordinasiya edir. Milli təhlükəsizlik sahəsində tənzimləmənin və idarəetmənin başlıca prinsipi rolunda da dövlətə istinad çıxış edir. Siyasi və sosial funksiyaları həyata keçirərək dövlət milli təhlükəsizliyin təmin olunması sahəsinə məqsədli şəkildə təsir edir. Bu zaman o, malik olduğu vasitələr və orqanlar sisteminə istinad edir. Milli təhlükəsizlik sahəsində fəaliyyətin dövlət tənzimləməsinin mahiyyəti özünü məhz bunda biruzə verir. Milli dövlət maraqlarına qarşı olan təhdidlərin və təhlükələrin aradan qaldırılmasını təmin edən dövlət orqanları sistemi normativ hüquqi aktların köməyi ilə qorunur. Bu təhlükəsizlik tədbirlərini səmərəli şəkildə həyata keçirməyə imkan verir. Hüquqi dövlət anlayışına istinad edərək milli təhlükəsizliyin təmin olunması mexanizmlərini müəyyənləşdirmək mümkündür. Bu mexanizmlər təbii ki, cəmiyyətin və insanın maraqlarına cavab verməklə, xüsusi xarakterləri ilə seçilir [1, 176].

Milli təhlükəsizliyin təmin olunması vəzifələri və bu məqsədlə həyata keçirilən addımlar başlıca olaraq dövlət orqanları səviyyəsində reallaşdırılır. Dövlət özünün praktiki fəaliyyətində milli təhlükəsizliyin təmin olunması funksiyasını yerinə yetirir [4, 9]. Milli təhlükəsizliyin təmin olunması mexanizmlərini nəzərdən keçirən zaman, hər şeydən öncə, milli təhlükəsizliyin təmin olunması sahəsində tədbirləri həyata keçirməkdə səlahiyyətli olan dövlət orqanlarına nəzər yetirmək məqsədəuyğun olardı. Milli təhlükəsizliyin təmin olunması mexanizmləri dövlət orqanlarının mürəkkəb sistemini ifadə edirlər. Belə mexanizmin uğurlu fəaliyyəti onların funksiya və səlahiyyətləri ilə sərt şəkildə məhdudlaşdırılır. Onların fəaliyyətləri bir qayda olaraq vahid mərkəzdən koordinasiya olunur. Bu mexanizm, onun ayrı-ayrı elementlərinin funksiya və səlahiyyətlərinin sərhədləri dəqiqliklə müəyyənləşdirildiyi halda səmərəli fəaliyyət göstərə bilir. Təhlükəsizliyin təmin olunması mexanizmini nəzərdən keçirən zaman ümumi təhlükəsizlik sisteminin həlledici rolunu xüsusi qeyd etmək lazımdır. Ümumi şəkildə götürsək, dövlətin təhlükəsizlik sisteminin əsas funksiyaları aşağıdakılardan ibarətdir:

-bütün istiqamətlərdə milli təhlükəsizliyə olan təhdidlərin müəyyənləşdirilməsi, obyektiv və hərtərəfli təhlil olunması və proqnozlaşdırılması;

-milli təhlükəsizliyin kriteriyalarının müəyyənləşdirilməsi, iqtisadi, daxili və xarici siyasi arenalarda, hərbi sahədə, ictimai təhlükəsizlik sahəsində milli təhlükəsizliyin təmin olunması mexanizmlərinin işlənib hazırlanması və həyata keçirilməsi;

-dövlətin strateji və səfərbər olunmuş resurslarının lazımi səviyyədə saxlanılması;

-milli təhlükəsizliyə təhdidlərin aradan qaldırılması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi üçün qanunverici və icra hakimiyyəti orqanlarının birgə işinin təşkili;

- milli təhlükəsizliyin təmin olunması qüvvələrinin formalaşdırılması və onların hər zaman hazır vəziyyətdə saxlanılması;

-adi və fövqəladə hallarda milli təhlükəsizliyin təmin olunması qüvvələrinin idarə olunması;

-ölkənin ayrı-ayrı regionlarında təhlükəsizlik obyektlərinin yaradılması və fövqəladə halların baş verdiyi zaman onların normal fəaliyyətlərinin təmin olunması;

-beynəlxalq müqavilələrə və razılaşmalara uyğun olaraq, ölkə hüdudların kənarında təhlükəsizliyin təmin olunması tədbirlərində fəal iştirak etmək;

-milli təhlükəsizliyin təmin olunması sahəsində qanunvericilik bazasının formalaşdırılması;

-milli təhlükəsizliyin təmin olunması istiqamətində qüvvələrin və resursların istifadə olunması haqqında qərarların qəbul olunması və s [3, 75].

Beləliklə təhlükəsizlik sisteminin səmərəli fəaliyyəti dövlət strukturlarının fəal idarəedici və digər fəaliyyətlərini tələb edir. Belə fəaliyyətlər normativ hüquqi aktlara söykənir və sərt şəkildə reqlamentləşdirilmiş olurlar. Qanunverici, icra və məhkəmə hakimiyyətləri sistemi milli təhlükəsizliyinin təmin olunmasına istiqamətlənməklə, təhlükəsizlik sisteminin əsas mexanizmini təşkil edirlər. Qanunvericiliyin müəyyənləşdirdiyi şərtlər daxilində vətəndaşlar təhlükəsizliyin təmin olunması prosesində iştirak etməklə, milli təhlükəsizliyin təmin olunması sisteminin tərkib elementlərini təşkil edirlər, bununla belə, onların üzərinə qanunvericiliklə hər hansı bir öhtəlik qoyulmur.

**ƏDƏBİYYAT**


1. Бабаев В.К., Баранов В.М. Общая теория права: Краткая энциклопедия. Новгород: Юрист, 1998, 246 с.
2. Дзлиев М.И., Романович А.Л., Урсул А.Д. Проблемы безопасности: теоретико-методологические аспекты. М.: МГУК; Изд. дом «Друг», 2001. 191 с.
3. Кортунов С.В. Концептуальные основы национальной и международной безопасности. М.: 2007, 308 с.
4. Куковский А. Механизм обеспечения национальной безопасности // Вестник Южно-Уральского государственного университета. Серия: Право, № 38 (214), 2010
5. Кузнецов Р.А. Информационная война как средство достижения успеха в современном бою / Инф. сбор. по заруб. странам и арм., 2013, вып.2.
6. Манилов В.Л. Безопасность в эпоху партнерства. М.: ТЕРРА, 1999, 368 с.
7. Прохожева А.А. Общая теория национальной безопасности: Учебник / М.: РАГС, 2002, 320 с.
8. Рагимов А.А., Гасанов Р.М. Трансформационные процессы и проблема националной безопастности в Азербайджане. Баку: ИНФО, 2003.
9. http://nicbar.ru/nazbez_lekzia1.htm

## НАЦИОНАЛЬНАЯ БЕЗОПАСНОСТЬ ГОСУДАРСТВА: СУЩНОСТЬ И ОБЕСПЕЧЕНИЕ

**З.М.ГАСАНАЛИЕВ**

### РЕЗЮМЕ

В научной статье рассматривается проблема национальной безопасности государства. Прежде всего, объясняется сущность национальной безопасности. Отмечается, что национальная безопасность –это защита государства и общества от внешних и внутренних угроз различного характера. Объясняя сущность национальной безопасности, также рассматривается проблема национальных интересов. Обосновывается, что национальные интересы и национальная безопасность дополняют друг- друга.

В представленной научной статье всесторонне анализируются механизмы и принципы обеспечения национальной безопасности.

**Ключевые слова:** национальная безопасность, национальные интересы, государство, общество, угроза, информационная безопасность

## NATIONAL SECURITY OF THE STATE: ESSENCE AND MAİNTENANCE

**Z.M.HASANALİYEV**

### SUMMARY

The paper studies the problem of national security. First of all, it explaines the essence of national security. It is noted that national security is the protection of the state and society from external and internal threats of various kinds. The essence of national security and the problem of national interests are explained. It is proved that the national interests and national security complement each other.

The research paper comprehensively analyzes the mechanisms and principles of national security.

**Key words:** national interests, national security, state, society, threat, information security